Tarixi xronoloji ardıcıllıq məsələsi olmasaydı, bu yazını lap əvvələ çəkərdim. Ancaq bəlkə elə bunun özündə də bir qanunauyğunluq var. Qulu Məhərrəmlinin *"Gələcəyə ön söz"* kitabı da, demək olar ki, Şirməmməd Hüseynov haqqında yazı ilə bitir. Bəlkə də, bu özü də bir rəmzdir. Axı Şirməmməd Hüseynov ictimai fikir tariximizin bütöv bir mərhələsi idi. Aparıcı sima olaraq yaşadığı dövrdə cəmiyyəti istiqlal ideyaları ilə çulğamaq üçün enerji mənbəyinə çevrilmişdi. İndi onun cismən dünyasını dəyişməsi ilə ictimai fikir tariximizin bütöv bir mərhələsi başa çatır.

Bundan sonra yeni dövr başlanır. Ş.Hüseynovun öyrəndiklərini öyrənmə ilə bərabər onun özünün həyatını və yaradıcılığını yenidən öyrənmə dövrü. O, orijinal düşüncə tərzi ilə bütöv bir müstəqil düşüncə sisteminə malik jurnalist nəsli yetirmişdi. İndi həmin nəsil Şirməmməd Hüseynovun mənəvi irsinin tədqiqinə daha geniş aspektdə yanaşacaq. Müstəqil düşüncə tərzinin yeni zamana uyğun təbiəti Şirməmməd Hüseynov məktəbinin təlqin etdiyi dərslərlə silahlanacaq.

* * *

Səmada ulduzların parlayıb-sönməsi haqqında əvvəl də demişdim. Elə indi də deyirəm ki, heç bir ulduz izsiz-soraqsız itib-batmır, yox olmur. Müəyyən olunmuş cazibə qanununa görə həmin ulduzun yeri başqa bir ulduz tərəfindən tutulur. Bu qayda üzərində düşüncələrimizi cəmiyyətə doğru yönəltsək, qəti inamla demək olar ki, heç bir insan cismən əbədiyyətə qovuşmaqla izsiz-soraqsız yox olmur. Əgər bir qədər də dini-mistik düşüncə ilə yanaşma göstərsək, deməliyik ki, hər bir insanın ruhunun daşıyıcısı öz zamanında formalaşır. Dəsti-xətti, təbiəti, bilikləri, düşüncə tərzi öz yetirmələrində yenidən üzə çıxır. Necə ki, *"Nəsimi"* filmində Nəiminin dilindən deyilir: *"Gedən cismimdir, ruhum çoxdan sizə köçüb"*.

Professor Qulu Məhərrəmlinin yazı tərzi, həqiqəti ifadə üslubu, ən başlıcası, zaman doğruluğuna az qala pedantcasına - sərt bir inadkarlıqla özünü tabe tutması həmişə məndə Şirməmməd Hüseynovun həyatının mənən davamı təsəvvürünü yaradıb.

Qulu Məhərrəmlinin *"Gələcəyə ön söz"* kitabında xüsusi diqqət və həssas yanaşma ilə qələmə alınmış son yazılardan biri artıq qeyd etdiyimiz kimi Şirməmməd Hüseynov haqqındadır.

## 5. USTAD HAQQINDA NƏĞMƏ, ƏBƏDİYYƏT QAPISINDA DÜŞÜNCƏLƏR

***Tarixin və taleyin əsrarəngiz qanunları, təzadları var. Hər nəsil bu intahasız, əvvəl-axır bilinməyən, əbədi və müvəqqəti həyat adlanan məkanda öz rolunu oynayır, köçüb gedir. Lakin həlalik daimi görünən vətən torpağıdır, xalqdır, maddi və mənəvi mirasdır. Hər kəsdən qalan isə, məncə, inam və inancdan doğan vətəndaş ad-sanı, doğruluq və dürüstlük-həqiqi milli qeyrətvə namusdur.***

***Şirməmməd HÜSEYNOV***

Professorun ömrünün son günlərini əhatə edən həmin yazı *"Tarixə qovuşan tarixi şəxsiyyət"* (25.06.2019) adlanır. Bu yazının şəxsiyyəti yaddaşda əbədiləşdirən istəyindən başqa bir keyfiyyəti də diqqəti cəlb edir. Burada tarixi şəxsiyyətin ictimai fikir tariximizdəki yeri məsələsinə də epizodik olsa da, sərrast motivlərlə işıq tutulur.

Aydın məsələdir, bir gün dünyaya gələnin vaxtlı, ya da vaxtsız bir gün də dünyadan getməyi var. Bütün hallarda insanın ölümü həyatın davamlılığında əsas şərt olsa da, həmişə ağrı ilə qarşılanır. Şübhəsiz, Şirməmməd Hüseynov kimi müdrikin də həyatdan gedişi onu tanıyanların, cəmiyyətdə yerini bilənlərin düşüncəsində kifayət qədər ağrı izi buraxdı. Professor Qulu Məhərrəmli öz yazısına elə Şirməmməd Hüseynovun ölüm xəbəri ilə başlayır: *"Onun vəfatı xəbəri mürgülü cəmiyyətimizdə göy gurultusu kimi səs saldı. Dünəndən bəri media bu məlumatı yayır, xəbər başlıqlarına ən cazibədar epitetlər çıxarılır. Görkəmli tədqiqatçı alim və pedaqoq, ziyalı və millət fədaisi Şirməmməd Hüseynovun haqq dünyasına qovuşması sosial şəbəkələrin də əsas mövzusuna çevrilib. Vida sözlərini ən məhrəm ifadələrə hopduran insanlar onun vəfatına təəssüflənir, mütəəssir olduqlarını dilə gətirirlər, çünki hamı Ş.Hüseynov çəkidə bir şəxsiyyət itkisinin miqyasını anlayır, bu itki ilə mənəvi mühitdə dərinləşəcək boşluğu görür, gələcək təhlükələri duyur..."*. Bəli, təəssüf ki, belədir. Hər hansı bir müdrikin yerinin boş qalması cəmiyyətdə dayaz düşüncənin qolqanad açması deməkdir. Bu itkinin təhlükəsindən danışarkən Qulu Məhərrəmli məhz elə bunu nəzərdə tutur. Şübhəsiz, Şirməmməd Hüseynov düşüncə tərzi, cəmiyyətdəki prosesləri izləmək və şərh etmək baxımından fərqli adam idi. Hansı məsələyə müdaxilə edirdisə, həmin məsələnin mahiyyətindəki qaranlığı qovub dağıdırdı. Hətta əks qütbdə dayananların belə varlığına öz işığı ilə təsir göstərə bilirdi, elə bu səbəbdən də ona yalnız bilərəkdən, ya da bilməyərəkdən etiraza demək olar ki, kimsə cürət etmirdi.

Şirməmməd Hüseynov cəmiyyətin uzaqvuran silahı idi. Fikir döyüşlərində həmişə qalib gəlməyə öyrəşmişdi. Elə başqaları da onun hər hansı bir mübahisə zamanı nəticədə qalib gələcəyinə inanırdı. Çünki o, mənəvi mühitinə xalqın bütün potensial imkanlarını cəmləyə bilmişdi.

Professor Qulu Məhərrəmli Ş.Hüseynovu məhz bu yöndən xarakterizə edir, ona görə də onun yenilməzliyi daha qabarıq görünür: *"Üzeyir Hacıbəyli deyirdi ki, bir millət qüdrət sahibi olmaq istəyirsə, mütləq iqtisadi, hərbi və mənəvi gücə yiyələnməlidir. Şirməmməd müəllimə xalq sevgisinin kökündə onun parlaq şəxsiyyəti, millət üçün gördüyü qiymətli işlərlə yanaşı, məhz mənəvi gücə sahib olması dayanır.*

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

# 5. USTAD HAQQINDA NƏĞMƏ,
## ƏBƏDİYYƏT QAPISINDA DÜŞÜNCƏLƏR

*Hərdən mənə elə gəlir ki, Allahtaala Ş.Hüseynovu bu millətin mənəvi gücünü artırmaq, onu qorumaq üçün Yer üzünə xüsusi missiya ilə göndərib. O özünü dərk edəndən həqiqət uğrunda çarpışıb, haqq söz deyib, ədalətin yanında olub, millətin marağını, ictimai marağı üstün tutub. Amma bir şey var ki özün dürüst olmasan, nəfsinə hakim kəsilməsən, bu yolla gedə bilməzsən. Həyatı bizlərə bir örnək olan Şirməmməd müəllim bütün ömrü boyu bu yolla gedib. Heç vaxt gücün, haqsızlığın və nadanlığın qarşısında susmayıb, başı ağrısa belə həmişə sözünü deyib. Təkcə iclas salonlarında yox, mətbuatdakı yazılarında olub. Əlbəttə, bu çətin yolu qət etməkdə parlaq həyat prinsipləri ilə yanaşı dərin biliyi, iti ağlı, parlaq zəkası, qeyri-adi düşüncə tərzi də ona kömək edib"*. Müəllifin yazdığı kimi, əslində Ş.Hüseynovun mənəvi yenilməzliyinin gücünü şərtləndirən keyfiyyətlər parlaq həyat prinsiplərinə əsaslanır. Parlaq həyat prinsipləri dedikdə isə, biz, təkzib olunmayan həqiqəti başa düşürük.

Qulu Məhərrəmli publisistik üslubuna uyğun olaraq, mətn daxilinə ədəbi-fəlsəfi pritça üslubunu gətirir. Xəyalən öz ustadını mifik obraz kimi qavrayır. Və bu qavrayışın mistik mahiyyət daşıdığını yox, həqiqi real insan taleyinin mahiyyətini ifadə etdiyini bildirir. Müəllifin qeydlərində Ş.Hüseynov hərəkətdə olan işıq kimi görünür: *"Mənə həmişə elə gəlirdi ki, Şirməmməd müəllim dayanmadan daim harasa yol gedir. Və üz tutduğu bütün yollar da qaranlıqdan işığa doğrudur. O bütün ömrü boyu yorulmadan, büdrəmədən ilahi bir işığın izini tutub gedir və insanları da bu aydın yola tərəf çəkir, çünki özünün mayası işıqdan yoğrulub. Əslində, bu həyatda onun üçün yalnız yolları aydınladan işıq var, belə insanlara görə, qaranlıq yalnız işığın yoxluğudur"*. Çox maraqlı yanaşmadır. Qaranlıq bizim təsəvvürümüzdə şər işlərin məkanıdır. Bütün oğurluqlar, xəyanətlər, şərlər, böhtanlar qaranlıq mühitin bəhrəsidir. Müəllif də təqribən bunu deyir. Yəni, qaranlıq deyilən bir məfhum yoxdur, sadəcə işığın olmadığı yer qaranlıqdır. Qulu Məhərrəmlinin bu düşüncələri, şübhəsiz, ən durğun düşüncə adamına belə təsirsiz ötüşmür.

Qulu Məhərrəmli tarixlə tarixi şəxsiyyəti bir-birindən ayırmır. Bu anlamların bir-birinə yaxınlığını, qohumluğunu, doğmalığını göstərmək istəyir. Və bu zaman onun üçün elə ən güclü istinad Ş.Hüseynovun həyatıdır: *"Şirməmməd Hüseynovun xarakterini nəsildən, gendən gələn həqiqət duyğusu formalaşdırıb. O, 18-20 yaşlarında əyalətdə riyaziyyat müəllimi işləyəndə də, "Nuxa fəhləsi" qəzetinin müxbiri kimi çalışanda da, Moskvada aspiranturada oxuyanda da, yetkin yaşlarında universitet müəllimi olanda da öz xarakteri ilə, düzlüyü və prinsipiallığı ilə fərqlənir. O az qala mentalitetə çevrilmiş mütiliyin, Şər qarşısında susmağın, danışmaq lazım gəldikdə "abırlı" olmağın və bütün başqa saxta (həm də zərərli) davranışların əleyhinə gedib. Elə buna görə də Şirməmməd müəllimin bəzilərinə bir az qəribə görünən sərtliyi, prinsipiallığı, yalana və ictimai əxlaqsızlığa qarşı durması çoxları üçün ideal qəhrəman davranışı kimi qəbul edilib. Məsələn, özü də parlaq xarakter və cəsarət sahibi olmuş professor Qulu Xəlilov vaxtilə Şirməmməd müəllimin şəxsində öz istək və arzularının təcəssümünü görmüş və onu N.Çernışevskinin məşhur Raxmetovuna bənzətmişdi. Böyük alim və ədəbiyyat tənqidçisi həm də "yalançılığa, riyakarlığa, dələduzluğa, çirkaba, üfunətə, ikiüzlülüyə, yaltaqlığa... qarşı mübarizədə" Ş.Hüseynovla çiyin-çiyinə olmağı arzulayırdı"*. Burada Qulu Xəlilov xatırlanır. Rus klassiklərindən Çernişevskinin məşhur Raxmetovu xatırlanır. Maraqlıdır ki, Qulu Xəlilov Ş.Hüseynovun obrazında hələ 40 il bundan əvvəl Raxmetov gücü görürdü. Şirməmməd onun üçün həqiqi mübariz obrazı idi.

Qulu Məhərrəmli Şirməmməd Hüseynovu təkcə nəsil fenomeni kimi görmür, onu həm də cəmiyyətin yetirməsi kimi görür. Cəmiyyət əslində özünü hifz etmək üçün müəyyən zamanlarda Şirməmməd kimilərinə ehtiyac duyur. Elə bu səbəbdən də zamanın tələbi ilə cəmiyyətin bətnindən məqamı gələndə qanunauyğun olaraq Şirməmmədlər dünyaya gəlir. Elə bu yolla Axundov dünyaya gəlmişdi, Zərdabi yaranmışdı. Elə mətləbi Q.Məhərrəmlinin özünün qeydlərindən də görə bilərik: *"Mən əminəm ki, Şirməmməd müəllimin bu xasiyyəti təkcə nəsil şəcərəsindən, genindən qaynaqlanmır, həm də mənəvi irsini araşdırıb öyrəndiyi Azərbaycan maarifçilərindən, bu xalqı azad və xoşbəxt görmək istəyən millət fədailərindən gəlir. Yəni onun düşüncə və davranışları zülmətdə işıq axtaran Mirzə Fətəlidən, "Əkinçi" qəzeti ilə xalqımıza ictimai göz vermiş Həsən bəy Zərdabidən, millətin tərəqqisi yolunda ömürlərini şam kimi əritmiş Üzeyir bəydən, M.Rəsulzadədən və ruhən bağlı olduğu digər mütəfəkkirlərdən gəlir"*. Həqiqətən müəllifin qeyd etdiyi kimi biz də təsəvvürümüzdə həmin adları sıralaya bilərik. Və nəhayət, zəmanəmizə gəlib çatanda, yəni 20-ci əsrin ikinci yarısından bəriki dövr üçün həmin adların zaman sırasında Şirməmməd Hüseynovun möhtəşəm adı mübahisəsiz olaraq öz yerini alır.

Ş.Hüseynov bütün həyatını ən faydalı işlərə sərf etmişdi. Əgər diqqət etdinizsə, biz "faydalı" yox, *"ən faydalı"* dedik. Tariximiz üçün ən faydalı iş Cümhuriyyət dövrünün tədqiqidir.

Müstəqil Azərbaycan Cümhuriyyəti Azərbaycan tarixinin ən parlaq səhifəsidir. Ş.Hüseynov da bunu yaxşı bildiyindən həyatını həmin dövrə sərf edir. Maraqlıdır ki, biz həmin dövrün ən maraqlı səhifələrini, fikirlərdə, düşüncələrdə həqiqət işığı yandıracaq səhifələrini Ş.Hüseynovun tədqiqatlarında işığa çəkilmiş görürük: *"Millət yaddaşının keşikçisi olan Şirməmməd müəllim XX əsr tariximizin mürəkkəb olaylarını, paradokslarını aşkara çıxaran çox qiymətli tədqiqatlar aparıb. Amma tarix üçün onun ən misilsiz xidməti hər bir vicdanlı azərbaycanlının qürur yeri olan Məhəmməd Əmin Rəsulzadənin irsini öyrənib təbliğ etməsi, əsərlərini toplayıb nəşr etməsidir. Bu baxımdan mübaliğəsiz demək olar ki, 1990-cı ildən bu yana Ş.Hüseynovun apardığı araşdırmaların şah əsəri Azərbaycan istiqlalının ideoloqu, Xalq Cümhuriyyətinin banisi M.Ə.Rəsulzadənin çoxcildlik əsərləridir"*. Həqiqətən, bir insan ömründən çox artıq zaman istəyən işdir. Qulu Məhərrəmli bu faktları təkcə müəlliminə hörmət və ehtiram məqsədi ilə gətirmir, həm də onun gördüyü işlərin miqyasını göstərməyə çalışır.

Bəlkə də, professor Q.Məhərrəmli bununla öz yetirmələrinə çatdırır ki, insan öz ömrünü xalqının, millətinin yolunda sərf edəndə enerjisi tükənmir, gücü qurtarmır, qüdrəti birə-beş artır. Q.Məhərrəmli yeri gəldikcə xalq, millət, vətən, türk tarixi ilə bağlı düşüncələrini oxucusuna Ş.Hüseynov obrazının fonunda təqdim edir. Məqamdan ustalıqla yararlanır: *"Vaxtilə M.Ə.Rəsulzadə deyirdi ki, "Türk tarixi tarixlərin ən az tədqiq olunmuşu, ən az öyrənilib yazılmışıdır... Bu xüsusda biz azərbaycanlılar hamıdan çox işıqlanmaq ehtiyacındayız"*. Şirməmməd müəllim bu dahi şəxsiyyətin əsrin qaranlıqlarından qopub gələn ibrətamiz tövsiyəsi ilə həmin ehtiyacı ödəmək missiyasını yerinə yetirirdi. O, böyük M.Ə.Rəsulzadənin əsrin əvvəllərində müxtəlif qəzetlərdəki məqalələrini toplayıb ictimaiyyətə çatdırmaqla elmi-nəzəri baxımdan üç mühüm problemi həll edib. Əvvəla, onun zamanın sınaqlarına tab gətirmiş ideyalarını üzə çıxarmaqla ictimai fikir tariximizi zənginləşdirib. İkincisi, ulu öndərin fırtınalarda keçmiş həyatının ayrı-ayrı epizodlarını bütöv bir xətdə birləşdirərək onun elmi bioqrafiyasını yaradıb və nəhayət, bu ölməz əsərlərlə milli tariximizin bütöv bir dövrünü öyrənmək üçün qiymətli və etibarlı bir mənbə ərsəyə gətirib. Eyni sözləri ölkə ictimaiyyətinin böyük heyranlıqla qarşıladığı üçcildlik *"Parlament hesabatları" haqqında da demək olar"*. Yeri gəlmişkən, Q.Məhərrəmlinin bu düşüncələrinə, sözünə qüvvət olaraq deyim ki, Ş.Hüseynov parlament hesabatlarını hazırlayarkən oradakı dramatik məqamları xətləyir. Bütövlükdə hər kəsin diqqətinə çatdırmaq üçün barmağını məna üzərində gəzdirərək sanki milləti həqiqət qapısının ağzına aparırdı. Açılmayan sirlərin açarını göstərirdi. Onun həyatının həmin məqamları sözün həqiqi mənasına fədakar müəllim dərsinin ən işıqlı, ən ulduzlu məqamları idi.

Professor Q.Məhərrəmli yazı boyu müəlliminin həyatının başdan-başa fədakarlıq tarixçəsi olan obrazında kölgəli heç nə qoymur. O, insan və tədqiqatçı, insan və müəllim, insan və ustad... obrazları ən müxtəlif tərəflərdən görünmək üçün səmimi ifadə tərzi ilə lövhələr yaradır. Səmimi insan tipi olaraq Ş.Hüseynovun obrazını həm də belə görürük: *"Son 2-3 ayda dərsi olmadığına görə Şirməmməd müəllim universitetə gəlmirdi, biz arada gedib evdə ona baş çəkirdik. Təzə tapıntılarından, bir də yaxın illər üçün yaradıcılıq planlarından söz açırdı, nəyi necə edəcəyini xırdalayırdı, mən də heyran-heyran qulaq asırdım. Söhbət dərinləşdikcə sənədlər kara gəlirdi, mövzuya aid olan əlyazmaların surətini götürüb vərəqləyir, məzmununu danışır, hərdən şəhadət barmağını yazıdakı bəzi cümlələrin üzərində saxlayaraq onları xüsusi vurğu ilə oxuyur, arada başını qaldırıb ənənəvi "bildin, nə deyirəm" sualını verirdi"*. Bəlkə də, Ş.Hüseynovun nadir adam olduğunu "bildin, nə deyirəm?" ifadəsi qədər başqa heç bir söz göstərə bilməz. Qulu Məhərrəmli də məhz həmin cizgi ilə müəlliminin nadir obrazını yaddaşlara yazır:

Və özü də həmin məqamlarda elə tələbə səmimiyyəti ilə müəllimini diqqətində saxlayır: *"Onun nə dediyini, nəyi vurğuladığını, nəyə işarə etdiyini çox gözəl bilirdim, çünki qırx ilə yaxındır ki, onu dinləyir, sözünün canını, çatdırmaq istədiyi fikrini, bütün dediklərini, hətta demədiklərini belə dərhal başa düşürdüm..."*. Əlbəttə, müəllifin özünün dediyi kimi Şirməmməd Hüseynovun bu dünyadan köçü cəmiyyətin demək olar ki, az-çox düşünən bütün təbəqələrində ağrılı bir az buraxdı. Onu tanıyanlar, onu bilənlər üçün bu köçün nə demək olduğu həmin dövrdə açıq-aşkar hiss olunurdu. Köçün ağrı məqamlarını Qulu Məhərrəmli belə ifadə edir: *"Onun ölüm xəbərini eşitmək çox ağır oldu. İki gün əvvəl özü xəstəxanadan mənə zəng etmişdi. Hansısa qəzet məqaləsinin adını dəqiqləşdirmək istəyirdi. Bir saat sonra yenə zəngləşdik, ordan-burdan danışdıq və qorxa-qorxa səhhətini soruşdum. "Yaxşıyam, nigaran qalma" dedi. Amma çox nigaran qalmışdım, çünki səsi, danışığının qətiyyəti o deyilydi. Ertəsi gün axşam bir də zəng etdim, telefonu qızı Fərəh xanım götürdü, vəziyyətini soruşdum, "yaxşıdır" dedi. Amma onun qayğılı səsindəki dərin kədər min kilometr uzaqdan belə aydınca duyulurdu..."*. Çətindir, sənə doğma olanı, səsini eşidəndə həyata inamın çağlar duyğularını hiss etdiyin birinin birdən-birə yoxluğu varlığında, şübhəsiz, unudulmayacaq bir iz qoyur. Əslində elə Q.Məhərrəmli də öz ustadından ayrılmağın ağrılı anlarını yaşayır. Və bütövlükdə elə bu yazının özü həmin ağrının elegiya - nəğmə kimi yaranışından ibarətdir.

Cəmiyyətə işıq olan insanların xidmətlərini sadalamaq bəlkə də, gərəksizdir. O yerdə ki, söhbət bütövlükdə işıqdan gedir, demək, həyatın yaşarlığında vacib olan nə varsa, hamısı bu işığın içərisində təzahür edir: *"Şirməmməd müəllimin bu millət qarşısında tarixi bir missiyası var idi və həmin missiyanı şərəflə yerinə yetirdi, özündən sonrakılar üçün zəngin irs və mənalı yaşamaq örnəyi qoyub getdi. Kim nə deyir-desin, həyatı və yaradıcılığı həqiqət, ləyaqət və vicdan ölçüləri üzərində qurulmuş Şirməmməd Hüseynovun vəfatı ilə mətbuat tariximizdə, müasir jurnalistikamızda böyük epoxa sona yetdi"*. Biz artıq Ş.Hüseynov epoxası haqda yuxarıda danışmışıq. Fikirlərimizin məğzində dayanan məna isə bundan ibarətdir ki, Şirməmməd Hüseynovdan sonra onun həyat və yaradıclığının öyrənilməsi zaman-zaman ictimai fikir tariximizə yeni çalar və rənglər gətirəcək. İnsanlar onun işıqlı obrazından həmişə ilham alacaqlar.

Sözünün sonunda professor Q.Məhərrəmli sanki öz müəllimi ilə vidalaşır: *"Əziz müəllimim, böyük ustad, Allah sənə rəhmət eləsin! Bu millət üçün etdiyin təmənnasız xidmətlər heç vaxt unudulmayacaq, yeriniz hər zaman görünəcək! Ruhun böyük Zərdabinin, Rəsulzadənin, Ağaoğlunun, Üzeyir bəyin müqəddəs ruhuna qovuşur. O gözəl ruhun şad olsun!"*. Ancaq bu vidalaşmada biz çox nikbin və dəyərli notlar görürük. Ən başlıcası, gələcəyə sonsuz inam görürük. Həyatımızın ən qaranlıq məqamlarında belə Şirməmməd Hüseynov işığının dadımıza yetəcəyinə inanırıq.

Bu işıq zaman-zaman yanacaq. Fikir işıqları sönmür. Dünyanın ən dəhşətli vulkanları sönsə belə...

*18.10.2021*